# COP29 uğurlarının fonunda Qərbin qərəzi nonsens qaldı

**Qlobal istiləşmə və ekoloji böhran dünyanın qarşılaşdığı ən ciddi təhlükələrdəndir. Bu problem bütün bəşəriyyətin gələcəyini təhdid edir.**

Resursların həddindən artıq istismarı və ekoloji tarazlığın pozulması nəticəsində yaranan iqlim dəyişmələri artıq təcili tədbirlərin görülməsini zəruri edir. Bu məsələnin həlli isə beynəlxalq əməkdaşlıq və irimiqyaslı maliyyə dəstəyi ilə mümkündür.

Qlobal istiləşməyə qarşı mübarizənin təməli 1992-ci ildə qəbul edilmiş BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası (UNFCCC) ilə qoyulmuşdur. Bu sənəd ilk dəfə olaraq inkişaf etmiş ölkələrə inkişaf etməkdə olan dövlətlərə əlavə maliyyə resursları təqdim etməyi tələb edir. 2015-ci ildə qəbul edilən Paris Sazişi isə bu istiqamətdə irəliləyişlər üçün yeni mərhələ oldu. Sazişin əsas məqsədi qlobal temperatur artımını 1.5-2°C səviyyəsində saxlamaq və karbon emissiyalarını azaltmaq üçün beynəlxalq mexanizmlər yaratmaqdır. Lakin hədəflər təyin edilsə də, inkişaf etmiş ölkələrin digər ölkələrə maliyyə dəstəyi ayırması məsələsində irəliləyişlər yetərli deyil.




**(davamı 17-ci səhifədə)**

GÜNÜN SİYASİ NƏBZİ

COP29 Baku Azerbaijan

(əvvəli 1-ci səhifədə)

İqlim dəyişmələri ilə mübarizədə yalnız "simvolik" vəsaitlərlə irəliləmək mümkün deyil. Dünya Bankı və digər beynəlxalq maliyyə institutları uzun illərdir "milyardlardan trilyonlara" tezisini müdafiə edirlər. Bu yanaşma iqlim dəyişmələrinin təsirlərini azaltmaq üçün tələb olunan böyük maliyyə resurslarının səfərbər edilməsini nəzərdə tutur. "Yaşıl texnologiya"ların daşıdı. Lakin bu Avropa və Qərbin bəzi dairələri, tədbirin əsas məqsədi olan qlobal istiləşmə ilə mübarizə əvəzinə, konfransı Azərbaycanın daxili siyasətini hədəf almaq üçün istifadə etdilər. Qərbin tənqidlərinə baxmayaraq, ölkəmiz iqtisadiyyatını diversifikasiya etmək, həm də enerji sektorunda "yaşıl texnologiya"lara keçiddə ciddi addımlar atır. Prezident İlham Əliyev COP29-un açılış nitqində sal üçün, iqlim dəyişmələrindən ən çox Qərbin tarix boyu imperialist siyasətlərindən zərər görən dövlətlər əziyyət çəkir. Amma bu dövlətlər inkişaf etmiş ölkələrdən yetərli maliyyə dəstəyi və ya texnoloji yardım almaq əvəzinə tənqidlərə məruz qalır. "İqlim ədaləti"ni təbliğ edən Qərb və dünya səhnəsində "məsuliyyətli oyunçu" obrazı ilə pərdə arxasında əksini edir.

Azərbaycan qlobal istiləş- təsirlərindən ən çox zərər çəkən ölkələrə dəstək məqsədilə İtki və Zərər Fondunun tam şəkildə təsis olunmasıdır. Fond fəaliyyətə 2025-ci ildən başlayacaq və ilkin mərhələdə 730 milyon dollarlıq maliyyə dəstəyi təmin edilməsi nəzərdə tutulur. Xüsusilə kiçik ada dövlətlərinin iqlim dəyişmələrindən qaynaqlanan problemlərinin həlli Azərbaycan Prezidenti İlham Əliyevin prioritetləri sırasında idi.

# COP29 uğurlarının fonunda Qərbin qərəzi nonsens qaldı

COP29 Baku Azerbaijan



inkişafı, təmiz enerji mənbələrinin genişləndirilməsi və dayanıqlı kənd təsərrüfatı sistemlərinin qurulması milyardlarla deyil, trilyonlarla dollar investisiya tələb edir.

Ekoloji böhranın həlli yalnız texnoloji dəyişikliklərdən ibarət deyil, bu mübarizənin sosial tərəfi də önəmlidir. İnkişaf etmiş ölkələr sadəcə texnologiyalarını ixrac etməklə deyil, həm də sosial ədaləti təşviq edən layihələrə sərmayə qoymaqla məsuliyyətlərini yerinə yetirməlidirlər.

2009-cu ildə inkişaf etmiş ölkələr 2020-ci ilə qədər ildə 100 milyard dollar "səfərbərlik" etmək barədə razılığa gəlmişdilər. Həmin rəqəm inkişaf etməkdə olan ölkələrin ehtiyaclarının böyük bir hissəsini ödəməsə də, razılıq bundan ibarət idi. Sonradan trilyon dollardan danışılsa da, hətta 100 milyard dollar vəsait ödənməsi təklifi inkişaf etmiş dövlətlərin bir çoxu tərəfindən xəsisliklə qarşılanıb. Belə ki, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına (OECD) görə, onlar 2020-ci ildə cəmi 83,3 milyard dollar toplamışdılar. İqlim Dəyişmələri üzrə Hökumətlərarası Panelin (IPCC) son hesabatından belə nəticəyə gəlinir ki, inkişaf etməkdə olan ölkələrə iqlimlə bağlı sərmayələr 2030-cu ilə qədər dörd-səkkiz dəfə artırılmalı və ildə təqribən 2-3 trilyon dollara çatdırılmalıdır.

Təəssüf ki, Paris Sazişindən sonra keçirilən COP sammitlərində iştirakçı dövlətlər arasında maliyyə yardımlarının ayrılması ilə bağlı konsensus əldə etmək çətin idi. Xüsusən Qərb dövlətlərinin bəzi aktorlarının destruktiv yanaşmaları bu məsələdə ciddi irəliləyişə mane olur. Böyük dövlətlər tərəfindən kasıb və inkişaf etməkdə olan ölkələrə maliyyə yardımının ayrılmasında gecikmələr, həmrəylik və qlobal ədalət prinsiplərinin ciddi şəkildə pozulduğunu göstərir.

COP29 İqlim Konfransı dünyanın qarşılaşdığı qlobal ekoloji böhranı müzakirə etmək üçün tarixi əhəmiyyət qeyd etdi ki, Azərbaycan Avropa üçün əsas qaz təchizatçılarından biri olaraq iqlim məsələlərinə ciddi töhfə verir. Buna baxmayaraq, Qərb dövlətləri və onların media orqanları ölkənin bu töhfələrini dəyərləndirmək əvəzinə, siyasi motivli hücumlarla diqqəti yayındırmağa çalışırlar.

Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen və digər rəsmilər iqlim konfransının ekoloji problemlərin həllindən çox siyasi təzyiq vasitəsinə çevirdilər. Eyni zamanda "The Guardian", "BBC", "Le Monde", "Human Right Watch" kimi "qərəzsiz" media qurumları onlar üçün iqlim problemlərinin maraq kəsb etmədiyini bir daha göstərdilər.

Tədbir zamanı bəzi dövlətlər, xüsusilə Fransa və Hindistan, Ermənistanın maraqlarından çıxış etdilər. Hindistan nümayəndəsinin 300 milyard dollar həcmində iqlim maliyyəsinin təsdiqlənməsinə qarşı çıxması bunun bariz nümunəsidir. Ermənistanla sıx siyasi əlaqələri olan bu ölkələr Azərbaycanın beynəlxalq nüfuzunu zəiflətmək məqsədilə iqlim məsələlərindən siyasi alət kimi istifadə etdilər.

ABŞ və Avropa Birliyi qlobal istiləşmənin səbəbkarları olaraq atmosferi on illərdir çirkləndirir. Amma Qərb çox rahatlıqla öz çirkablarını "inkişafın yan təsirləridir" deyərək təmizə çıxarmağa çalışır.

Fransa kimi dövlətlər isə Ermənistana siyasi dəstək nümayiş etdirməkdən ötrü iqlim maliyyəsinin müzakirəsini təxirə salmaqdan çəkinmədilər. Bu ikili standartlar artıq heç kimi təəccübləndirmir.

Böyük güclərin kiçik ölkələrə vurduğu ziyan sadəcə ekoloji deyil, həm də iqtisadi və siyasi əngəllər yaradır. Mi- məyə qarşı mübarizədə ədalət tələb edir. Lakin böyük güclərin öz məsuliyyətlərini kiçik dövlətlərin üzərinə yükləməsi qlobal həmrəyliyi zəiflədir. Belə ki, iqlim məsələləri siyasi oyunlardan kənarda saxlanılmalı, real tədbirlər görülməlidir.

Qərbin maskasının arxasında gizlənən siyasətlər bu gün ifşa olunur. Bu barədə ölkə başçısı qeyd edir ki, genişmiqyaslı və planlaşdırılmış böhtan və qarayaxma kampaniyasına baxmayaraq, Azərbaycan iqlim danışıqlarında tarixi nəticələr əldə etməyə müvəffəq oldu. Belə ki, Azərbaycanın ev sahibliyi etdiyi və noyabrın 11-dən başlayan COP29 İqlim Konfransı inkişaf etməkdə olan ölkələr üçün kritik qərarların qəbul olunması ilə diqqət çəkdi. Rəsmi Bakı tədbirin uğurla keçməsi və beynəlxalq razılaşmaların əldə olunması üçün bütün resurslarını səfərbər etdi.

COP29-un əsas nailiyyətlərindən biri, inkişaf etməkdə olan dövlətlər üçün hər il 1,3 trilyon dollar iqlim maliyyəsi təmin etməyi nəzərdə tutan Bakı Maliyyə Məqsədinin (BMG) təsdiqlənməsi oldu. Yeni öhdəlik 2035-ci ilə qədər inkişaf etmiş ölkələrin hər il ən azı 300 milyard dollar maliyyə yardımını təmin edəcək. Bu qərar əvvəlki 100 milyard dollarlıq hədəfləri əhəmiyyətli dərəcədə üstələyir və qlobal investisiyalarda böyük dönüş nöqtəsi hesab edilir.

Konfransda 2015-ci ildən bəri ilk dəfə Paris Sazişinin 6-cı maddəsi tam şəkildə tətbiq olundu. Bu qərar, karbon bazarlarının inkişafını dəstəkləməklə, emissiyaların azaldılmasını qlobal miqyasda tənzimləmək üçün yeni imkanlar yaradır.

COP29-da digər mühüm nəticə isə iqlim dəyişmələrinin

COP29 çərçivəsində qəbul edilən ən mühüm qərarlardan biri də 10 illik Yenilənmiş Gender üzrə Lima İş Proqramının təsdiqlənməsi oldu. Bu proqram çərçivəsində razılaşma üzrə danışıqların uzun müddət davam etmişdi və uğurlu diplomatik səylər nəticəsində yekun razılıq əldə edildi.

Azərbaycan COP29 vasitəsilə qlobal iqlim çağırışlarına sadiqliyini bir daha sübut etdi. Təşkil olunan tədbirlərdə qəbul edilən qərarlar Azərbaycanın yalnız regional deyil, qlobal miqyasda da ekoloji problemlərin həllinə töhfə verə biləcəyini göstərdi. Bu nailiyyətlər ölkəmizin iqlim dəyişmələrinə qarşı mübarizədə əhəmiyyətli rol oynadığını və beynəlxalq səviyyədə etibarlı tərəfdaş kimi qəbul edildiyini təsdiqləyir. Bütün bunlar bir daha göstərir ki, ölkəmiz COP29-da qarşıya qoyduğu hədəflərə nail oldu.

Azərbaycanın mövqeyi bütün ölkələrin, xüsusən də inkişaf etmiş dövlətlərin iqlim öhdəliklərini bərabər şəkildə yerinə yetirməsinin vacibliyini göstərir. Qlobal istiləşmə ilə mübarizə yalnız fərdi səylərlə deyil, həmrəylik və ədalətli maliyyə resurslarının bölgüsü ilə mümkündür. Qərbin ikili standartlarının aradan qaldırılması və iqlim məsələlərinin siyasi manipulyasiyalardan kənarda saxlanması bu istiqamətdə əsas addım olacaq.

**Ləman TƏHMƏZ,**
**"Respublika".**